*Elmi Tədqiqat*
May 2026, Cild: 6, Sayı: 5, s. 50–54
*Scientific Research*
May 2026, Volume: 6, Issue: 5, pp. 50–54
DOI: https://doi.org/10.36719/2789-6919/58/50-54

# Y.Haşekin "Cəsur əsgər Şveykin macəraları" romanında cəmiyyətin satirik təsviri

**Vüsalə Qazıyeva**

***Xülasə.*** *Bu məqalədə görkəmli çex yazıçısı Jaroslav Hašek yaradıcılığı, xüsusilə onun dünya ədəbiyyatında mühüm yer tutan "Cəsur əsgər Şveykin macəraları" romanı tədqiq olunur. Araşdırmanın əsas məqsədi əsərdə satira, müharibə tənqidi və cəmiyyətin sosial-siyasi problemlərinin necə əks etdirildiyini müəyyənləşdirməkdir. Məqalədə yazıçının satirik realizm ənənələrinə sadiqliyi, bürokratiya, siyasi oyunlar və müharibənin insan həyatına təsiri kimi mövzulara xüsusi diqqət yetirdiyi göstərilir. Haşekin yaradıcılığında dokumentalizm üslubunun mühüm yer tutduğu, müəllifin şəxsi həyat müşahidələri və real hadisələrdən geniş istifadə etdiyi vurğulanır.*

*Tədqiqat zamanı romanın baş qəhrəmanı Josef Šveyk obrazı təhlil edilir və onun sadəcə fərdi xarakter deyil, bütövlükdə çex xalqının ümumiləşdirilmiş simvolu olduğu qənaətinə gəlinir. Şveykin davranışında görünən sadəlövhlük və komik xüsusiyyətlər əslində müharibənin, hərbi intizamın və bürokratik sistemin absurdluğunu ifşa edən satirik vasitə kimi təqdim olunur. Müəllif Avstriya-Macarıstan imperiyasının dağılmaqda olan ictimai-siyasi sistemini istehza ilə təsvir edir, müharibənin mənasızlığını və insan psixologiyasına təsirini açıb göstərir.*

*Araşdırma nəticəsində müəyyən edilir ki, Haşekin yaradıcılığı yalnız satirik ədəbiyyat nümunəsi deyil, həm də müharibə əleyhinə humanist düşüncənin ifadəsidir. Roman bu gün də sosial ədalətsizlik, hakimiyyət özbaşınalığı və insan azadlığı problemlərini əks etdirdiyi üçün aktuallığını qoruyub saxlayır.*

***Açar sözlər:*** *çex ədəbiyyatı, Y.Haşek, satira, komik roman, sosial tənqid*

---

Bakı Slavyan Universiteti, filologiya üzrə fəlsəfə doktoru, Bakı, Azərbaycan
E-poçt: vusalagaziyeva73@gmail.com
Daxil oldu: 1 Fevral 2026; Qəbul edildi: 10 May 2026; Onlayn dərc edildi: 30 May 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BY-NC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

# Satirical Representation of Society in "The Good Soldier Švejk" by Jaroslav Hašek

**Vusala Qaziyeva**

***Abstract.*** *This article examines the creative work of Jaroslav Hašek, with particular attention to his world-famous novel The Good Soldier Švejk. The main purpose of the study is to analyze how satire, criticism of war, and social-political problems are represented in the novel. The research highlights Hašek's commitment to satirical realism and his focus on such themes as bureaucracy, political manipulation, and the destructive impact of war on human life.*

*Special attention is paid to the documentary style in the writer's works, where real-life observations and personal experiences are widely reflected.*
*The article analyzes the image of Josef Švejk, concluding that he is not only an individual literary character but also a generalized symbol of the Czech people. His apparent simplicity and comic behavior serve as satirical tools exposing the absurdity of war, military discipline, and bureaucratic systems. Hašek portrays the declining socio-political order of the Austro-Hungarian Empire with irony and humor, revealing the senselessness of war and its influence on human psychology.*
*The study concludes that Hašek's works are not merely examples of satirical literature but also expressions of anti-war and humanistic ideas. The novel remains relevant today because it addresses universal issues such as social injustice, abuse of power, and the struggle for individual freedom. Through satire and realistic depiction, the author creates a powerful critique of society and war that continues to resonate with modern readers.*

***Keywords***: *Czech literature, J.Hasek, satire, comic novel, social criticism*

---

Baku Slavic University, PhD in Philology, Baku, Azerbaijan
E-mail: vusalagaziyeva73@gmail.com
Received: 1 February 2026; Accepted: 10 May 2026; Published online: 30 May 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

## Giriş

Tanınmış çex yazıçısı Yaroslav Haşek öz əsərlərində bürokratiya, siyasi oyunlar və müharibə dövrünün problemləri kimi mövzulara toxunmuşdur. Satirikə ən böyük şöhrəti yarımçıq qalmış "Cəsur əsgər Şveykin macəraları" romanı qazandırmışdır. Haşek yaradıcılığında satirik realizmin tərəfdarı olmuşdur. O, mühüm ictimai hadisələri və cəmiyyətin hakim təbəqəsini çəkinmədən təsvir edirdi. Ədəbiyyat və incəsənətdə "dokumentalizm" adlanan istiqamətə yazıçı daha çox müraciət etmişdir.

Təkcə 1900-1915-ci illər arasında Haşek öz imzası və ya müxtəlif təxəllüslərlə təxminən beş yüz felyeton nəşr etdirmişdir. Bunlar siyasi bürokratiyanı, məmur özbaşınalığını və digər qüsurları üzə çıxaran qısa satirik yazılar idi. Haşek oçerklərində yalnız uydurma hadisələri deyil, eyni zamanda öz həyat təcrübəsini də təsvir edirdi. Real insanlarla ünsiyyəti və düşdüyü gülməli vəziyyətləri də yazıçı əsərlərinə daxil edirdi (Elanski, 1980).

Onun çoxsaylı hekayələri həyatın ən müxtəlif sahələrini əhatə edir – məişət uğursuzluqlarından tutmuş iri maliyyə fırıldaqlarına qədər. O, qarşısına oxucuları güldürmək, onlara maraqlı və əyləncəli hadisələr danışmaq məqsədi qoyurdu. Y.Haşekin yaradıcılığının erkən dövrünə aid hekayələrdən "Kənd idilliyası" ("Vesnická idyla"), "Vaxtında gəldi" ("Přišel včas"), "Uğurlu ekskursiya" ("Šťastný výlet"). Bu əsərlər müəllifin ictimai hadisələri dərindən görmək bacarığını, hətta qısa təsvirlərdə belə dövrün mühüm hadisələrini realist şəkildə canlandırmaq qabiliyyətini göstərir (Dunayevski, 1983).

Müəllifin müasir dövr hadisələrini satirik şəkildə təsvir etmək istedadı, həmçinin xırda detalları sezib onlara diqqət yetirməsi onun gələcək yaradıcılığının istiqamətini müəyyənləşdirmişdir. Sonralar müəllifin özünəməxsus komik üslubu inkişaf edir. İlk baxışda onun qəhrəmanları sadə və avam görünürlər, lakin oxucular düşünürlər ki, görəsən bu personajlar doğrudan da bu qədər ağılsızdırlar, yoxsa məharətlə özlərini elə göstərirlər.

Tədqiqatın əsas məqsədi Y.Haşekin yaradıcılığını, xüsusilə "Cəsur əsgər Şveykin macəraları" romanını təhlil edərək, əsərdə satira, müharibə tənqidi və cəmiyyətin sosial-siyasi problemlərinin necə əks olunduğunu araşdırmaqdır.

Tədqiqatın vəzifələri yazıçının yaradıcılıq xüsusiyyətlərini müəyyənləşdirmək, romanın ideya-məzmun istiqamətini təhlil etmək, Şveyk obrazının simvolik və ümumiləşdirici mahiyyətini izah etmək və əsərin müasir dövr üçün aktuallığını dəyərləndirməkdir.

**Tədqiqat**

Siyasi satira Y.Haşekin xüsusilə güclü olduğu janr idi. Onun əsərlərində qəhrəman cəmiyyət quruluşunun və hakim sistemin təzyiqi altında yaşayan insanın ümumiləşdirilmiş obrazı kimi təqdim olunurdu. Haşek bütün həyatı boyu siyasi problemlərlə və onların insanlar arasındakı ictimai münasibətlərə necə təsir göstərməsi ilə maraqlanmışdır. Keçən əsrin 20-ci illərində Haşekə dünya şöhrəti qazandıran "Cəsur əsgər Şveykin macəraları" əsərinin ilk fəsilləri yazıldı. Əsərdə müharibənin dəhşətləri təsvir olunur, Avstriya-Macarıstan ordusunun və çexlərin iradəsizliyi satirik tərzdə tənqid edilirdi. Bu roman yalnız müharibənin müxtəlif çətinliklərini göstərməklə kifayətlənmirdi, eyni zamanda insanlara hazırcavab yumor vasitəsilə çətinliklərin öhdəsindən gəlməyi də öyrədirdi (Shablovskaya, 1998).

Şveyk haqqında roman Haşekin bütün zəngin ədəbi irsinə böyük maraq oyatdı. Əsərin baş qəhrəmanı Yozef Şveyk çex xalqını təcəssüm etdirən ümumiləşdirilmiş bir obrazdır və müəyyən cəhətləri ilə Y.Haşekin özünü xatırladır. Romanın süjetində müəllifin həyatından götürülmüş bir çox səhnələr yer alır.

Süjetdə tez-tez müəllifin bioqrafiyasından parçalar görünür və səmimiyyətli yumor Şveykə ədalətsiz reallıqla mübarizə aparmağa kömək edir. Baş qəhrəman tez-tez gülməli vəziyyətlərə düşür, özünü sadəlövh kimi göstərir və hərbi qaydalardan yayınmağa çalışır. Bununla da o, ordudakı absurd qaydalara və müharibənin qəddarlığına qarşı çıxır.

Sivilizasiyanın qüsurlarını ümumiləşdirilmiş bədii şəkildə göstərdiyinə görə bu kitab bu gün də aktuallığını qoruyub saxlayır. "Cəsur əsgər Şveykin macəraları" əsəri həm satira, həm komik epopeya, həm də mistifikasiya nümunəsidir. Müəllifin özünün əsərin birinci hissəsinə yazdığı son sözdə qeyd etdiyi kimi, bu kitab "müəyyən bir dövrün tarixi mənzərəsi"dir (Gashek, 1999). Əsərdə çoxsaylı obrazlar və personajlar vasitəsilə vaxtilə qüdrətli olmuş, lakin artıq öz dövrünü yaşamış və buna görə də gülünc və mənasız görünən Avstriya-Macarıstan imperiyasının dağılma dövrü təsvir edilmişdir.

Y.Haşekin satirik romanı çoxlu lətifələrdən və meyxanə hekayələrindən ibarətdir. Bunlar baş qəhrəmanın dilindən ard-arda səslənir. Bu "mövzuya uyğun hekayələr" sanki öz-özünə yaranır, çox vaxt hadisələrlə birbaşa əlaqəsi olmur və təcrübəsiz oxucu üçün romanın əsas məzmunu kimi görünür. Belə hallarda əsər sadəcə lətifələr toplusu kimi qəbul edilir (Nikolski, 1997).

Bununla yanaşı, bu kitabda müəllifin öz xarakterində olduğu kimi iki fərqli tərəf özünü göstərir. Yazıçını yaxından tanıyan dostları Haşeki iki simada görürdülər. Şən və faciəli Haşek kimi. Yazıçı S.Basov bu barədə qeyd edirdi ki: "Haşekdə iki insan vardı: biri özünü təlxək kimi aparırdı, digəri isə onu müşahidə edirdi. Az adamın gördüyü həmin "ikinci" Haşek insan həyatının mənasızlığını dərk etmişdi və bunu gizlətməyə, yumorla ört-basdır etməyə çalışırdı. Buna isə "birinci" Haşekin etdiyi zarafatlar kömək edirdi" (Basov, 1983).

Məşhur ədəbiyyatşünas İ.Bernşteynin yazdığına görə, "Yaroslav Haşekin kitabında baş verən hadisələrin gülünclüyü və milli xüsusiyyəti ondan ibarətdir ki, çex ədəbiyyatı avstriyalı hərbi forma geyinmiş, nifrət etdiyi Vyanaya və almanca danışan avstriyalı zabitlərə tabe olan bir çexin özünə qardaş saydığı slavyan xalqlarına qarşı döyüşməyə göndərilməsindən bəhs etməli idi" (Bernshteyn, 1983). Bu hisslər belarus tədqiqatçısı Y.Lyavonavanın məşhur sözlərində aforistik şəkildə ifadə olunmuşdur: "Mən Avstriya təbəəsiyəm. Bundan daha dəhşətli nə ola bilər?" (Lyavonava, 2003).

Haşek bu reallığın absurdluğunu *ad absurdum* üsulu ilə göstərir, yəni baş qərargahın bütün əmrlərini absurda qədər çatdırmaqla. Yozef Şveyk isə həmin əmrləri son dərəcə pedantik dəqiqliklə yerinə yetirir (Popov, 2004).

Müəllifin özü kimi, Şveyk də Birinci Dünya müharibəsinin mahiyyəti və tarixi əhəmiyyəti barədə yanılmırdı. O, müharibəni ilk günlərdən etibarən absurd hadisə kimi qəbul etmişdi. Romanın gücü ümumilikdə müharibəni bir dəli absurd kimi inkar etməsindədir. Müəllif Yozef Şveyki yalnız güclü qəhrəman kimi deyil, həm də zəif cəhətləri olan bir obraz kimi göstərir. Onun xarakterində qeyri-müəyyənlik, xırda burjua yumşaqlığı və qərarsızlıq da vardır.

Şveyk obrazının komizminin əsası şüurla davranış arasındakı ziddiyyətdir. O, istismarçı cəmiyyətə nifrət etsə də, ona qarşı ciddi mübarizə aparmaq üçün iradə və hazır vəziyyətə malik deyil. Bu, insan təbiətindəki ziddiyyəti, şüurla iradə, zəka ilə hisslər arasındakı uyğunsuzluğu göstərir. Lakin Şveyk özü bu daxili ziddiyyəti dərk etmir. S.Qolubkovun qeydinə görə: "Romanda Şveykin portreti demək olar ki, verilmir, yalnız onun mavi gözləri və iri qulaqları barədə qısa qeydlər var. Bunun əvəzində çoxlu dialoqlar vasitəsilə həm Şveyk, həm də digər personajlar dolğun şəkildə xarakterizə olunur" (Golubkov, 2008).

Şveykdən başqa, romanda digər obrazlar da var. Onlar Şveyk qədər detallı təsvir olunmasalar da, kompozisiya baxımından onunla bağlıdırlar və əsas qəhrəmanın obrazını açmağa kömək edirlər. Müəllif bu personajları istehza ilə göstərir və xalq üçün mənasız olan mübarizəni ifşa edir. Y.Haşek personajları iki qrupa bölür: biri Şveykin tərəfində olanlar, digəri isə ona qarşı olanlar. Qəhrəmanın düşüncə və davranışlarını bölüşənlər arasında ehtiyatda olan əsgər Marek, katib Vanek, telefonçu Xodounski, aşpaz Yurayda və digər əsgərlər var (Slaventator, 1960). Şveykə qarşı olan tərəfdə isə leytenant Dub, kapitan Sagner, polis işçiləri və din xadimləri dayanır. Leytenant Dub nifrət doğuran bir obraz kimi göstərilir, Lukas və Sagner isə daha çox yüngül tənqid olunur. Müəllif Kac və Latsina kimi personajların müharibənin mənasızlığını başa düşdüklərini göstərir.

Müəllifin Yozef Şveyk, Marek və hərbi həkim Velferə münasibəti fərqlidir. Bu insanlar zəif cəhətləri olan, lakin müharibəyə, lovğa və özündənrazı generallara və zabitlərə qarşı çıxan şəxslərdir. Onlar Avstriya-Macarıstan monarxiyasının siyasi və dövlət quruluşuna qarşı olanlardır, lakin bu mübarizəni açıq şəkildə aparmaq gücündə deyillər (Pıtlik, 1977). Hər birinin öz siyasi baxışı var və davranışlarında oxşarlıqlar olsa da, sosial vəziyyət, təhsil və inkişaf səviyyəsinə görə fərqlənirlər. Baş qəhrəman Şveyk it ticarəti ilə məşğul olmuş, sadə kənd itlərini "kübar" itlər kimi satmış və orduda rəhbərliklə davranma təcrübəsi qazanmışdır. O, savadsız olsa da, lovğalanmağı sevən biridir və daha savadlı Marek ilə bir növ dialoqda çıxış edir. Mareklə müqayisədə Şveyk daha sadə və birbaşa hərəkət edir, daha çox danışmaqdan çox hərəkətə üstünlük verir və hər zaman məntiqli düşünmür.

**Nəticə**

Beləliklə, işin elmi nəticəsi olaraq qeyd edə bilərik ki, Yaroslav Haşekin yaradıcılığı, xüsusilə "Cəsur əsgər Şveykin macəraları" romanı, müharibənin absurdluğunu və cəmiyyətin sosial-siyasi ziddiyyətlərini dərin satirik üslubda əks etdirir. Əsərdə Yosef Şveyk obrazı vasitəsilə insanın müharibə və bürokratik sistem qarşısında mövqeyi ümumiləşdirilmiş şəkildə təqdim olunur və bu

obraz dövrün ictimai reallığını simvolik olaraq ifadə edir. Haşekin yaradıcılığı yalnız satirik ədəbiyyat nümunəsi deyil, həm də müharibə və imperiya sisteminin tənqidi baxımından mühüm ədəbi-mənəvi mənbə kimi qiymətləndirilə bilər.

Məqalədə qaldırılan problem bir çox milli ədəbiyyatşünaslar tərəfindən tədqiq olunsa da, ədəbi-nəzəri fikrimizdə müvafiq səviyyədə araşdırılmamış, tədqiqatların elmi predmetinə çevrilməmişdir. Məqalədə tədqiq olunan mövzu Y.Haşekin yaradıcılığı və xüsusilə "Cəsur əsgər Şveykin macəraları" romanı əsasında satira, müharibə tənqidi və sosial problemlərin bədii ifadə imkanlarının öyrənilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Bu tədqiqat ali təhsil müəssisələrində çex ədəbiyyatı tarixinin tədrisində, satirik ədəbiyyatın öyrənilməsində, eləcə də cəmiyyət və ədəbiyyat əlaqələrinin izahında istifadə oluna bilər. Eyni zamanda, əsərdəki ideyalar müasir dövrdə müharibə əleyhinə düşüncənin formalaşmasına və sosial tənqidi baxışın inkişafına töhfə verir.

Aparılan təhlillər göstərir ki, Y.Haşekin yaradıcılığı, xüsusilə "Cəsur əsgər Şveykin macəraları" romanı satirik ədəbiyyatın ən mühüm nümunələrindən biridir. Əsərdə müharibənin absurdluğu, bürokratik sistemin mənasızlığı və cəmiyyətin sosial ziddiyyətləri güclü bədii ifadə vasitələri ilə əks olunmuşdur. Yozef Şveyk obrazı vasitəsilə müəllif insanın mürəkkəb və ziddiyyətli təbiətini göstərmiş, eyni zamanda, müharibə və zorakılığa qarşı satirik etiraz ifadə etmişdir. Roman həm tarixi dövrün real mənzərəsini təqdim edir, həm də ümumbəşəri dəyərlərə toxunaraq bu gün də aktuallığını qoruyur. Beləliklə, Haşekin yaradıcılığı yalnız ədəbi nümunə deyil, eyni zamanda, sosial-siyasi düşüncənin formalaşmasında mühüm rol oynayan dəyərli bir mənbə kimi qiymətləndirilə bilər.

**Ədəbiyyat**

1. Basov, S. (1983) Gashek i Shveik: k 100-letiyu so dnya rozhdeniya Ya. Gasheka. *Sem'ya i shkola, 4*, 46–48.
2. Bernshtein, I. (1983) Shveik na mirovom forume (O meste romana Ya. Gasheka "Pokhozhdeniya bravogo soldata Shveika" v mirovoi istorii). *Voprosy literatury, 4*, 87–112.
3. Dunaevskii, A. (1983) Idu za Gashekom. *Oktyabr', 4*, 155–175.
4. Elanskii, N.P. (1980). *Yaroslav Gashek: posobie*. Prosveshchenie.
5. Gashek, Ya. (1999). *Pokhozhdeniya bravogo soldata Shveika*. İzd-vo EHKSMO-press.
6. Golubkov, S.I. (2008). Gashekovskii Shveik i mental'naya model' "prostodushnogo" ("naivnogo") cheloveka v russkoi literature XX veka. *Materialy Mezhdunarodnoi nauchno-prakticheskoi konferentsii Kirillo-mefodievskie chteniya. Slavyanskii mir: vera i kul'tura*, 22-24 maya, 204–208.
7. Lyavonava, E.A. (2003). Use paklaў na altar praўdy… Yaraslaў Gashak; yago raman "Prygody ўdaloga saldata Shveika". *Rodnae slova, 4*, 22–25.
8. Nikol'skii, S.V. (1997). *Istoriya obraza Shveika. Novoe o Yaroslave Gasheke i ego geroe*. Indrik.
9. Popov, G.Kh. (2004). Tak kto zhe idiot? Roman Ya.Gasheka "Pokhozhdeniya bravogo soldata Shveika". *Nauka i zhizn', 4*, 42–49.
10. Pytlik, R. (1977). Kniga, obrashchennaya k segodnyashnemu dnyu. *Inostrannaya literature, 10*, 206–209.
11. Slaventator, D. (1960). Poiski, vechnye poiski. *Neva, 7*, 159.
12. Shablovskaya, I.V. (1998). *Istoriya zarubezhnoi literatury (KHKh vek, pervaya polovina)*. izd. tsentr Ehkonompress.